DÖVLƏT VERGİ XİDMƏTİ

# Sadələşdirilmiş verginin ödəyiciləri bunları bilməlidirlər!

**Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən,01.01.2026-cı il tarixindən etibarən**

Sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnu müəyyən edən dövriyyənin yuxarı həddi hesablanarkən:

- pərakəndə ticarət və
- vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərdən formalaşan dövriyyə 50% azaldılmaqla (**0,5 əmsal tətbiq edilməklə**) nəzərə alınır.

## Nə dəyişdi?

Dəyişikliklərdən əvvəl sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ qeyd-şərtsiz qaydada ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslərə (ƏDV qeydiyyatında olmayanlar, ictimai iaşə istisna olmaqla) şamil olunurdu.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

Dəyişikliklərdən sonra qeyd olunan hüququ üçün vergi tutulan əməliyyatların həcmi hesablanarkən pərakəndə ticarət və əhaliyə xidmət sahələrində POS-terminal vasitəsilə həyata keçirilən nağdsız dövriyyə 2 dəfə azaldılaraq (**0,5 əmsal**) nəzərə alınır.

**Misal:** Vergi ödəyicisinin ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) ümumi vergi tutulan əməliyyatların həcmi: **260.000 manat,** onlardan pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr **140.000 manat** təşkil etmişdir. Nağdsız qaydada formalaşan dövriyyə iki dəfə azaldılaraq ümumi dövriyyədən çıxıldıqdan sonra 190.000 manat (260.000 - 140.000*0.5) təşkil etdiyindən vergi ödəyicisinin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnu saxlanılır.

**BAKI — 2026**